NURƏDDİN BABAYEV

# QIZLAR SÖZ İSTƏYİR

QANUN NƏŞRİYYATI

**Nurəddin Babayev. QIZLAR SÖZ İSTƏYİR**

Janr: bədii nəsr
Yaş qrupu: 12+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 368

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-608-23-6

© Qanun Nəşriyyatı, 2026
© «Gənclik», 1977

Yazıçı Nurəddin Babayev gənclərimizin tərbiyəsindən bəhs edən “Oğluma məktublar”, “Qızlar, sözüm sizədir...” əsərlərində başlamış olduğu söhbəti bu kitabındakı “Qızlar söz istəyir”, “Valideynlər, bizi dinləyin”, “Həyat yollarında” adlanan fəsillərdə davam etdirir.

Kitabda gənclərin əmək və estetik tərbiyəsindən, ənənələrə münasibətindən, dostluq və məhəbbətindən söhbət gedir.

# MÜNDƏRİCAT

## OĞLUMA MƏKTUBLAR


BİRİNCİ MƏKTUB ............ 17
İKİNCİ MƏKTUB ............ 24
ÜÇÜNCÜ MƏKTUB ............ 31
DÖRDÜNCÜ MƏKTUB ............ 37
BEŞİNCİ MƏKTUB ............ 44
ALTINCI MƏKTUB ............ 52
YEDDİNCİ MƏKTUB ............ 60
SƏKKİZİNCİ MƏKTUB ............ 68
"OĞLUMA MƏKTUBLAR"DAN SONRA... ............ 82


## QIZLAR, SÖZÜM SİZƏDİR


BİRİNCİ MƏKTUB ............ 97
İKİNCİ MƏKTUB ............ 98
ÜÇÜNCÜ MƏKTUB ............ 118
DÖRDÜNCÜ MƏKTUB ............ 126
BEŞİNCİ MƏKTUB ............ 132
ALTINCI MƏKTUB ............ 136
YEDDİNCİ MƏKTUB ............ 140
SƏKKİZİNCİ MƏKTUB ............ 145
DOQQUZUNCU MƏKTUB ............ 145
ONUNCU MƏKTUB ............ 146

## QIZLAR SÖZ İSTƏYİR

ÖN SÖZ MÜƏLLİFİNDİR ........................................................ 154

## VALİDEYNLƏR BİZİ DİNLƏYİN

MİNNƏTDARLIĞIMIZ, GİLEYİMİZ ........................................... 230
"MƏN SƏNİN YERİNƏ OLSAM..." ............................................ 239
AİLƏ ELƏ BİR ALƏMDİR Kİ... .................................................. 250
TƏLƏBKARLIQ LAZIMDIR, AMMA... ....................................... 258
QADAĞAN ETMƏLİ, YOXSA... ................................................ 267
MƏGƏR BU DA ADƏTDİR?.. .................................................. 276

## SƏNİN ƏQİDƏN

HƏYA GƏRƏKDİR! ................................................................ 300
NANKORLUQ NƏDƏN DOĞUR? ............................................. 305
YALAN ÜZ QIZARDAR ........................................................... 313
GÖZƏLLİYƏ QIYMAYIN! ......................................................... 319

## HƏYAT YOLLARINDA

ZƏMİNƏNİN SÖZÜ VƏ ÖZÜ .................................................... 324
TORPAQ OĞLU ..................................................................... 333
GÖZLƏR İŞIQLANANDA... ..................................................... 340
MƏN SÖZ SƏRRAFIYAM ....................................................... 347

## MÜHARİBƏNİN ÜÇ GÜNÜ

QIZXANIMIN HÜNƏRİ ........................................................... 356
SƏNSİZ ................................................................................. 358
QƏLƏBƏ ƏTRİ ...................................................................... 362
MƏNİM UNİVERSİTETİM ...................................................... 364

İstedadlı şəxsin bir sənətkar kimi yetişməsində mühüm rolu olan amillər sırasında ictimai münasibətlərin, ədəbi ənənələrin xüsusi yeri vardır. Bu mənada yazıçı konkret milli zəmində yetişib, öz sələflərinin yolunu davam edirirsə də, onun ədəbi mövqeyi, əsərlərinin ictimai dəyəri klassik ənənələrə münasibətindən daha çox, özünəməxsus yeni cəhətlərdə müəyyənləşir. Bu baxımdan Nurəddin Babayevin müasir ədəbi prosesin geniş və əlvan lövhəsində fərdi sənətkarlıq xüsusiyyətləri, mövqeyi və mövzusu vardır. Onun əsərlərindən sərf-nəzər edib, Azərbaycan bədii sənədli ədəbiyyatının inkişafını təsəvvürə gətirmək qeyri-mümkündür; bu, yaradıcılıq axtarışlarının rəngarəngliyini və həyati əhatənin mənzərəsini xeyli yoxsullaşdırardı.

Nurəddin Babayev mətbuat aləminə 1939-cu ildə gəlmiş, hələ orta məktəbdə oxuya-oxuya "Azərbaycan pioneri" qəzeti ilə əməkdaşlıq etməyə başlamışdır.

Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədova həsr edilmiş "Əbədi qəhrəmanlıq" (1945) adlı ilk kitabından sonra çap edilən "Bacılar" (1947), "Böyük qüvvə" (1950), "Təzə dostlar" (1959), "Bahar övladları" (1959), "Ürək-

lər bir olanda” (1961), “İşıq və məhəbbət” (1963), “Biz Azərbaycandanıq” (1965), “Oğluma məktublar” (1966), “Ulduzlar sönmür” (1966), “Qızlar, sözüm sizədir...” (1972) və bir sıra başqa əsərləri, ümumiyyətlə, Azərbaycan və rus dillərində çıxan 22 kitabı oxucuların rəğbətini qazanmış, bəzi əsərləri SSRİ xalqları dillərinə və xarici dillərə tərcümə edilmiş, “Atalar və oğullar” oçerki Bolqarıstanda dərsliyə salınmışdır.

Nurəddin Babayevdən danışanda tədqiqatçılar onu yazıçı-jurnalist adlandırırlar. Doğrudan da o, bir jurnalist kimi fəaliyyətə başlamış, 50-ci illərdən etibarən müntəzəm surətdə jurnalistikanın nəzəri məsələləri və sənətkarlıq və sənətkarlıq problemləri ilə məşğul olmuşdur. 30-cu illərdə Azərbaycanda bədii oçerkin inkişafına həsr olunmuş “Mübariz janr” (1958) əsəri, publisistikaya dair əllidən artıq məqaləsi maraqla qarşılanmışdır. Onun əsərlərində irəli sürülüb, müdafiə olunan mülahizələr, eyni zamanda görkəmli bir publisist-yazıçının şəxsi qənaəti kimi əhəmiyyətli olub, gələcəkdə bədii oçerkin və publisistikanın tarixini öyrənəcək tədqiqatçılara çox kömək edəcəkdir. Redaktorluğu altında və müəllif kimi iştirakı ilə çapa hazırlanmış iki hissədən ibarət “Jurnalistika məsələləri” adlı tədris vəsaiti Azərbaycan Jurnalistlər İttifaqının Qızıl Qələm mükafatına layiq görülmüşdür. Yeri gəlmişkən, yada salaq ki, yazıçı bu mükafatı birinci dəfə “Oğluma məktublar”a görə almışdır.

Bu bir həqiqətdir ki, sənətkarın tərcümeyi-halı ilə əsərləri arasında üzvi bir bağlılıq olur və müəllifin keçdiyi yolu işıqlandıran məlumatlar əsərlərinin daha yaxşı

başa düşülməsinə kömək edir. Nurəddin Babayev Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuş, bir jurnalist kimi respublikamızın, demək olar ki, hər yerini qarış-qarış gəzmiş, adlı-sanlı əmək adamları ilə, müdrik qocalarla, elm və sənət xadimləri ilə görüşmüş, onların mənalı söhbətlərini dinləyib, həyatları, qənaətləri, siyasi-əxlaqi mövqeləri ilə yaxından tanış olmuşdur. Bir jurnalist kimi Bolqarıstan, Polşa, Kuba, Rumıniya, Fransa və Finlandiyada olmuş, ölkəmizə qonaq gələn görkəmli xarici yazıçılar və jurnalistlərlə görüşüb söhbət etmişdir. Uzun illər Azərbaycan Dövlət Universiteti[1] Jurnalistika fakültəsinin müəllimi kimi gənclərin arzu və istəklərinə, mənəvi aləmlərinə yaxından bələd olmuşdur. Müxtəlif mənbələrdən əxz olunan məlumat və faktların əlvanlığı əsərlərinin həyatiliyini və inandırıcılığını gücləndirmişdir.

Nurəddin Babayev yazıçı-jurnalistdir, lakin bu "gah yazıçı, gah jurnalist" demək deyildir. Onun uzun illərdən bəri davam edən təcrübəsinin səmərəliliyi inandırıcı surətdə göstərir ki, yazıçı ilə jurnalist arasında sərhəd varsa da, bu sərhədi aydın fərqləndirmək çətindir. Jurnalistika, qəzetçilik sənətkarı varlığa, insanlara daha yaxından bağlayır, yaradıcılığı daima qidalandıran tükənməz mənbələrdən biri olur. Bir sıra görkəmli sovet sənətkarlarının yaradıcılıq taleyi bu fikri parlaq surətdə təsdiq edir.

Nurəddin Babayev yazıçı kimi Böyük Vətən müharibəsi qəhrəmanlarından və kəndin qabaqcıl əmək adamla-

[1] Bakı Dövlət Universiteti

rından bəhs edən oçerkləri ilə diqqəti cəlb etmiş, sənətin sirlərinə bələd olduqca, mövzu dairəsi genişlənərək daha əhatəli olmuşdur. Böyük Vətən müharibəsi qəhrəmanları və yeni kəndin adamları ilə yanaşı, respublikamızın sənaye qabaqcıllarının, sənət və elm xadimlərinin, Mingəçevir və Şirvan (Əli Bayramlı) inşaatçılarının, dəniz neftçilərinin yaradıcılıq axtarışları onu çəkib öz ardınca aparmışdır. Cəsarətlə demək olar ki, onun qələmindən çıxan oçerklər əsasında Böyük Vətən müharibəsindən sonrakı dövrdə respublikamızın ən mühüm tikintilərinin xəritəsini tərtib etmək olardı.

Həyatla bağlılıq mövzu dairəsinin genişliyini təmin etdiyi kimi, əsərlərində mühüm əxlaqi problemləri ilk plana çəkməsinə, özünü və oxucuları düşündürən problemləri partiyalı mövqedən, müasir baxışla qiymətləndirməsinə də kömək etmişdir. “Biz Azərbaycandanıq” kitabına kiçik müqəddimədə müəllifin sənətkar qənaəti özünün aydın əksini tapmışdır. “Bu kitab Azərbaycan və Azərbaycanı şöhrətləndirən Vətən oğulları haqqında hekayələrdən, yazıçı qeydlərindən ibarətdir. Gördüyüm, eşitdiyim, həqiqiliyinə əmin olduğum hadisələr, tanıyıb bildiyim adamlar haqqında yazmışam”.

Nurəddin Babayevin qəhrəmanları, sözün əsl mənasında, əmək adamlarıdır. Onlar sənaye, kənd təsərrüfatı, elm, maarif, incəsənət, səhiyyə sahəsində çalışmalarından asılı olmayaraq, öz sənətlərinə qəlbən bağlı, əməyə vətəndaşlıq borcu, xalqa səmərəli xidmət vasitəsi kimi baxan, daima axtaran, müvəffəqiyyətlərdən arxayınlaş-